**Abduyeva Leyla Vidadi qızı**
Bakı Mühəndislik Universiteti

# ABŞ-MEKSİKA MÜNASİBƏTLƏRİ: PRESPEKTİVLƏR VƏ PROBLEMLƏR

***Açar sözlər:*** *Meksika, ABŞ, NAFTA, miqrasiya, sərhəd*
***Key Words:****Mexico, USA, NAFTA,Migration, Border,Drug Cartel*
***Ключевые слова:*** *Мексика, США, НАФТА, Миграция, Граница, Наркокартель*

## Giriş

Məqalədə müzakirə olunan əsas mövzulardan biri NAFTA-nın Meksika-ABŞ münasibətlərindəki roludur.İki ölkə arasındakı münasibətlərin inkişafında regional təşkilat olan NAFTA-nın müstəsna rolu olmuşdur.1980-cı illərə qədər idxalata əsaslanan və qapalı bir iqtisadi model ilə idarə olunan Meksika 1980-cı illərdən sonra açıq iqtisadi modelə keçmişdir.Bununla da ixracata əsaslanan istehsal sisteminə keçərək xarici kapitallara daha çox yer ayırmağa başladı.Bu mərhələdə Meksika ilə ABŞ-ın iqtisadi münasibətləri inkişaf etmişdir.1990-cı illərdən etibarən iki ölkə arasında ticarətin sərbəstləşdirilməsi haqqında müzakirələr ortaya çıxmışdır.Müzakirələrdə əsas məqsəd Meksikanın inkişaf etmiş,yüksək əmək haqqına sahib olan ABŞ və Kanada iqtisadiyyatına inteqrasiyasının və sərbəst ticarətinin təmin edilməsi idi.Müzakirə olunan digər bir mövzu isə iki ölkə arasında yaşanan immiqrasiya problemidir. ABŞ-la Meksika arasında yaşanan ən böyük problemlərdən biri Meksikadan ABŞ-a köç edən illeqal miqrantlardır.İki ölkə arasında miqrant problemi tarixin bütün dövrlərində mövcud olsa,ikinci dünya müharibəsi illərində daha da aktuallaşmışdır.

ABŞ hökumətinin Meksikaya nəzarət etməsində ən əsas arqument Meksikadakı narkotika kartelləridir.Belə ki ABŞ Meksikadakı narkotika kartellərinə qarşı mübarizə devizini əlində tutaraq daima bu ölkəni öz təsiri altında saxlaya bilir.Bununla bərarbər Meksikadakı narkotik kartellərinin mövcudluğu ABŞ-ın təhlükəsizliyinə ciddi təhdidi törədir.İki ölkə arasında yaşanan daha başqa bir problem isə sərhəd məsələsidir.ABŞ-ın geniş coğrafiyası olmasına baxmayaraq iki ölkə ilə quru sərhəddi mövcuddur.Bunlardan biri Kanadadadır,digəri isə Meksikadadır. ABŞ-ın Meksika ilə sərhəddinin 3.100km uzunluğuna sahib olub boş çöllərdən,su ərazilərİdən müxtəlif coğrafi ərazilərdən ibarətdir.Bu sərhəddin adı Tijuana sərhəddidir.Tijuiana sərhəddi isə güclü narkotika kartellərinin yer aldığı bir Meksika şəhəridir.İki ölkə arasındakı sərhəd probleminin tarixi hələ 1848-ci ildə baş verən Meksika-ABŞ müharibəsinə dayanır.Belə ki,ABŞ bu müharibə nəticəsində Meksikanın Texas əyalətini ələ keçirməklə Meksikan ərazisinin ¼-nə sahib oldu.Bu baxımdan iki ölkə arasındakı sərhəddini bir neçə tarixi dövrlərə bölə bilərik,bunlar:azadlıq dövrü;gömrük dövrü;qanuni icra müddəti dövrü;təhlükəsizlik dövrü.

## 1.Meksika-ABŞ münasibətlərinin prespektivləri çərçivəsində NAFTA-nın rolu

NAFTA-nın əsası ABŞ ilə Kanada arasında 1988-ci ilin Yanvar ayında imzalanan və 1989-cu ildə qüvvəyə minən Sərbəst Ticarət Müqaviləsi ilə qoyulmuşdur.Meksika ilə isə eyni müqavilə 1992-ci ildə bağlanmışdır.ABŞ və Kanada üçün Meksika həm ixracat üçün ümid verici bir bazar həm də ABŞ və Kanada şirkətlərinin rəqabət gücünü arttıra biləcək daha az maliyyətli kapital yeri mənasına gəlirdi.Təşkilat 1994-cü ilin yanvar ayında üç dövlətin (ABŞ,Meksika və Kanada) müzakirəsi ilə fəaliyyətə başlamışdır. [1]

Bu müqavilə ilə Meksikada daha çox ucuz işçi qüvvələrinin olması ABŞ-ın Meksikaya daha çox kapital ayırması ilə nəticələnmişdi.İki ölkə arasında yaranan bu iqtisadi asılılıq Meksika-ABŞ arasında 1848-ci ildən bəri mövcud olan gərgin münasibətləri azaltmışdır.NAFTA ilə iki ölkə arasındakı münasibətlər daha çox iqtisadi prizmadan inkişaf etməyə başlamışdır.NAFTA-nın hər iki ölkəyə ayrı-ayrılıqda gətirdiyi faydalar:

### ABŞ üçün

NAFTA sazişi ABŞ-ın yalnız iqtisadi deyil,həm də geopolitik gücünün artırılmasına xidmət edir.Bu saziş ABŞ-ın geniş miqyaslı məqsədlərinə nail olması üçün onun strateji siyasətinin tərkib hissəsidir.Bu strateji məqsədlər bunlardır:Amerikanın əmtəə və xidmətlərinin sərbəst hərəkəti;Əqli mülkiyyətin müdafiə hüququ;Rəqabət qabiliyyətinin yüksəlməsi;ABŞ-ın yüksək texnologiya və investisiyalarının Meksikanın ucuz işçi qüvvəsi və hər iki ölkənin zəngin təbii sərvətləri ilə birləşməsi nəticəsində yeni regional müqayisəli üstünlüklərdən istifadə edilməsi olmuşdur.

### Meksika üçün

Danışıqların gedişində Meksika dünyada ən iri həcmli bazar olan Amerika bazarına etibarlı çıxışın təmin olunmasına,xarici investisiyalar axınının artırılmasına (Meksika kapital qoyuluşlarının geri qaytarılması da daxil olmaqla),eləcə də ABŞ bazarının himayədarlıq yolu ilə müdafiə olunması səviyyəsinin

aşağı salınmasına nail oldu.Əslində Meksika üçün NAFTA ölkədə müvəffəqiyyətli islahatların həyata keçirilməsi və iqtisadiyyatın modernləşdirilməsi üçün çox zəruri olmuşdur.Nəticədə keçmişdə Meksika əsasən neft ixracatından asılı olan ölkə idisə,bu gün o NAFTA sayəsində sənaye məmulatlarının ixracatçısına çevrilmişdir ki,bu da onun dayanıqlı iqtisadi inkişafını təmin edir.NAFTA-nın Meksika üçün daha bir nailiyyəti isə,o Meksika mallarının ABŞ və Kanada bazarına idxalında olan ayrı-seçklilik münasibətlərini tam aradan qaldırmışdır.Eyni zamanda Meksikaya idxal lisenziyasının ləğv edilməsi bu ölkəyə ABŞ və Kanadadan mal ixracının həcminin və səmərəliliyinin yüksəlməsinə səbəb olmuşdur. Meksika hökumətinin fikrincə,qarşılıqlı ticarətdə tarif maneələrinin aradan qaldırılması Meksika-istehsalçılıarı üçün dayanıqlı sahibkarlıq mühitinin yaradılmasına və səmərəli investisiya qərarlarının qəbul olmasına imkan yaratdı. [2]

## 2.Meksika-ABŞ Münasibətlərində Mövcud Problemlər

### 2.1.İmmiqrasiya Problemi

ABŞ-la Meksika arasında yaşanan ən böyük problemlərdən biri Meksikadan ABŞ-a köç edən illeqal miqrantlardır.İki ölkə arasında miqrant problemi tarixin bütün dövrlərində mövcud olsa,ikinci dünya müharibəsi illərində daha da aktuallaşmışdır.

Belə ki,ABŞ-ın İkinci Dünya Müharibəsinə qoşulması ilə ölkədə geniş miqyasda hərbi səfərbərlik elan edilmiş,hərbi səfərbərliklə birlikdə əhalinin sayı ciddi şəkildə azalmış və kadr çatışmazlıqlarına səbəb olmuşdur. [3]. ABŞ, Meksikalı işçi qüvvəsi ilə kadr çatışmazlığı problemini ortadan qaldırmaq üçün 1943-cü ildə “Bracero” adlı işçi proqramını yaratmışdır. Bu programla, Meksikalı işçilərə ayrıca bir status gətirilməsi irəli sürülmüşdür.Programda ABŞ-a gələn Meksikalıların çoxunun müqavilə müddətinin bitməsi ilə öz ölkələrinə geri qayıtması gözlənilsə də,onlar müqavilənin müddətinin bitməsinə baxmayaraq öz ölkələrinə geri qayıtmamışdır.Barsero proqramı müvəffəqiyyətlə nəticələnməmiş,hətta kütləvi sayda meksikalı işçi qüvvələrinin istismarı ilə nəticələnmişdir.Bundan sonra həmin miqrantların Meksikaya geri qayıdışı ilə əlaqədar proqramın qəbul olunması ilə ABŞ-da Meksikalı miqrantların sayı ciddi şəkildə azalmışdır.Soyuq müharibədən sonra xüsusilə.1994-cü ildə NAFTA-nın yaradılması ilə Meksikadan ABŞ-a illeqal miqrantların axını ciddi şəkildə artmışdır. Doğrudur ABŞ-da baş verən 11 sentyabr hadisəsindən sonra Meksikalı miqrantların axını azalsa da sonraki dövrlərdə artış göstərməyə başlamışdır.Xüsusilə 2014-cü ildə Barak Obamanın “köç reformunu”qəbul etməsi Meksikalı miqrant axının daha da artmasına səbəb olmuşdur.Belə ki reforma görə,dörd milyon sənədsiz Meksikalı miqrant Amerika torpaqlarında müvəqqəti yaşayış və işlə təmin olunacaqlardı.Donald Trampın hakimiyyətə gəlişi ilə Meksikalı miqrantlara qarşı mübarizə aparılmağa başlandı.ABŞ-ın Miqrant və Gömrük idarəsi 2017-cilin yanvar-mart aylarında 32%-lik artışla 21362 Meksikalı miqrantı həbs etmişdir.

### 2.2.Narkotik Kartelləri Problemi

ABŞ hökumətinin Meksikaya nəzarət etməsində ən əsas arqument Meksikadaki narkotika kartelləridir.Belə ki ABŞ Meksikadaki narkotika kartellərinə qarşı mübarizə devizini əlində tutaraq daima bu ölkəni öz təsiri altında saxlaya bilir.Bununla bərarbər Meksikadaki narkotik kartellərinin mövcudluğu ABŞ-ın təhlükəsizliyinə ciddi təhdidi törədir.Bu məqsədlə ABŞ hələ 1970-ci illərdən etibarən Meksikadaki narkotika kartellərinə qarşı mübarizə aparmağa başlamışdır.Belə ki,ABŞ və Meksika hökuməti birgə narkotik kartellərinə qarşı mübarizə aparmaq məqsədi ilə 1973-cü ildə “Narkotiklərlə Mübarizə İdarəsi”yaradılır.1980-ci illərdən xüsusilə Reyqan hökuməti dövründən isə narkotikaya qarşı mübarizə daha da gücləndirilmişdir. Reyqan hökuməti 1986-cı ildə Narkotikanın Sui-istifadəsinə Qarşı Mübarizə Qərarını aldı.Bu qərara görə isə ABŞ-ın maddi dəstəyini alan ölkələrin il ərzində ABŞ-ın narkotika əleyhinə mübarizə fəaliyyətlərində dəstək verdiyini vəya ölkənin özü təkbaşına narkotikaya qarşı mübarizə apardığını təsdiqləməli idi.Əgər ölkə lazımı tədbirlər görə bilməzsə xarici dəstəyin təmin etdiyi proqram və kapital imkanlarından təcrid olunardı.Əslində bu qərarın əsas hədəf ölkəsi Meksika olmuşdur.Bu qərar çərçivəsində ABŞ Meksikanı bütün xarici yardımlardan təcrid etməyə başladı.Bütün bunlara baxmayaraq iki ölkə arasındaki narkotik kartelləri problemi hələ də davam etməkdədir.Bunun bir sıra səbəbləri vardır:Bu səbəblərdən biri ABŞ hər nə qədər narkotikə qarşı mübarizə aparan ölkə olsa da,Meksikadan ixrac olunan narkotik maddələrin ən böyük istehlakçısı da məhz ABŞ hesab olunur.Başqa bir səbəb isə Meksika əsas silah tədarikçisi məhz ABŞ-dır.ABŞ Meksikadan idxal olunan narkotik məhsullarının qarşılığında Meksikanı silahla təmin etməkdədir.Hər nə qədər Narkotiklərlə Mübarizə narkotik maddələrə qadağa qoyulması məqsədi ilə yaradılsa da son dövrlərdə xüsusilə “hər kəsin fərdi şəkildə narkotikə qarşı mübarizə aparmalıdır”mülahizəsini irəli sürməsi narkotikə qarşı mübarizəni çətinləşdirən daha başqa bir səbəb hesab olunur.[4]

Ümumi yanaşdıqda ABŞ yalnız Nikson,Reyqan,Cimmi Karter,Bill Klinton dövrlərində narkotikə qarşı mübarizə aparıldığını görə bilərik.Son dövrlərdə “Marixuanın Leqallaşdırlması”haqqında qərar lahiyəsinin

irəli sürülməsi bunun ən əyani sübutudur.Donald Tramp ABŞ-da prezident seçildikdən sonra ən aktual problemlərdən biri olan Meksika-ABŞ sərhəddində divarın inşa olunmasıdır.Donald Trampa görə məhz bu divarın inşası ilə iki ölkə arasında illeqal miqrant və narkotik malların axını dayanacaqdır.Bu fikrin nə dərəcədə düzgün olub-olmadığını isə zaman göstərəcəkdir.

## 2.3.Sərhəd Problemi

ABŞ-ın geniş coğrafiyası olmasına baxmayaraq iki ölkə ilə quru sərhəddi mövcuddur.Bunlardan biri Kanadadadır,digəri isə Meksikadadır. ABŞ-ın Meksika ilə sərhəddinin 3.100km uzunluğuna sahib olub boş çöllərdən,su əraziləridən müxtəlif coğrafi ərazilərdən ibarətdir.Bu sərhəddin adı Tijuana sərhəddidir.Tijuiana sərhəddi isə güclü narkotika kartellərinin yer aldığı bir Meksika şəhəridir.İki ölkə arasındaki sərhəd probleminin tarixi hələ 1848-ci ildə baş verən Meksika-ABŞ müharibəsinə dayanır.Belə ki,ABŞ bu müharibə nəticəsində Meksikanın Texas əyalətini ələ keçirməklə Meksikan ərazisinin ¼-nə sahib oldu.Bu baxımdan iki ölkə arasındaki sərhəddini bir neçə tarixi dövrlərə bölə bilərik,bunlar:azadlıq dövrü;gömrük dövrü;qanuni icra müddəti dövrü;təhlükəsizlik dövrü.Biz bu məqalədə günümüzdə aktual olan Təhlükəsizlik Dövrünü izah etməyə çalışacayıq.

**Sərhəddin Təhlükəsizlik Dövrü:** 11 Sentyabr 2001-ci ildə Nyu Yorkda baş verən terror hücumları bu dövrün başlaması üçün kifayət edən ünsür olmuşdur. 11 sentyabr hadisələrinin nəticələrindən Latın Amerika ölkələrindən ən çox əziyyət çekən məhz Meksika olmuşdur.Çünki sərhəddə olan nəzarət ciddi şəkildə artmışdır.Əslində burada əsas məsələ sadəcə sərhəddə nəzarətin ciddi şəkildə gücləndirilməsi deyil,eyni zamanda ölkə daxilində olan koordinasiya əksikliyi idi. Teroristlərin ABŞ-ın istənilən sərhəddindən hücum edə bilmə şansının olmasına baxmayaraq,ABŞ hökuməti sadəcə Meksika-ABŞ sərhəddinə olan nəzarətini daha da gücləndirmişdir.ABŞ hökümətinin bu siyasəti uzun müddət davam etmişdir.Təsadüfi deyildir ki,2006-cı ildə Corc Buşun proqramı əsasında ABŞ-Meksika sərhəddinin 1000 km-i bir-birindən qopuq şəkildə də olsa beton və simlərlə hörülmüşdür.

Sərhəd məsələsində iki ölkə arasında ən böyük təşəbbülərdən biri ABŞ ilə Meksika arasında 2010-cu ildə elan edilən *Sənəd Rejiminin İdarə Edilməsi ilə əlaqədar Deklorasiya ilə bağlı Bəyannamədir.*Bu bəyannamədə əsas məqsəd iki tərəfli 1 sərhəd idarəçiliyi təşəbbüsü lahiyəsinin irəli sürülməsidir.Bu lahiydə 2000 millilik ABŞ-Meksika sərhəddinin idarə olunmasını təmin edəcək bir neçə təşəbbülər irəli sürülmüşdür. Bu cəhdlərdən biri təhlükəsizlik risklərini idarə etmək,digər bir cəhd sərhəddə yaşayanların işlə məşğulluğunu təmin etmək və iki ölkənin əməkdaşlığını təmin edəcək qanuni,nizamlayıcı tədbirlərin həyata keçirilməsi üçün siyasətlər müəyyənləşdirilməyə çalışılmışdır.Bu məqsədlə hər iki ölkə öz federativ hökumət departamentlərində həm ABŞ həm də Meksika ofislərinin təmsiliçilərindən ibarət ikili bir icraedici və istiqamətləndirici Komitə (ESC)quruldu.[5]

Sərhəd məsələsi Donald Trump-ın dövründə daha da aktuallaşmışdır.C.Buşun başlatdığı sərhədd divarının hörülməsi məsələsi Trump tərəfindən davam etdirilir.Hətta Trump Divar tikintisinin xərclərinin Meksika tərəfindən ödəniləcəyini irəli sürmüşdür.Əgər ödəməsə ABŞ burada yaşayan sənədsiz Meksikalı miqrantların öz ölkələrinə pul göndərməsinə imkan verməyəcək.Trump bu hərəkətin ABŞ-ın Terrorla Mübarizə Qanunu əsasında həyata keçiriləcəyini bildirmişdir.Bundan başqa Meksikalılar üçün viza xərclərinin artması,sərhəddi keçənlərdən daha çox pul alınması və idxalat vergisinin artırılması da gözlənilir.[ 6]

## Nəticə

NAFTA-nın qurulması ilə Meksikada daha çox ucuz işçi qüvvələrinin olması ABŞ-ın Meksikaya daha çox kapital ayırması ilə nəticələnmişdi.İki ölkə arasında yaranan bu iqtisadi aslılıq Meksika-ABŞ arasında 1848-ci ildən bəri mövcud olan gərgin münasibətləri azaltmışdır.NAFTA ilə iki ölkə arasındaki münasibətlər daha çox iqtisadi prizmadan inkişaf etməyə başlamışdır.

1994-cü ildə NAFTA-nın yaradılması ilə Meksikadan ABŞ-a illeqal miqrantların axını ciddi şəkildə artmışdır. Doğrudur ABŞ-da baş verən 11 sentyabr hadisəsindən sonra Meksikalı miqrantların axını azalsa da sonraki dövrlərdə artış göstərməyə başlamışdır.Xüsusilə 2014-cü ildə Barak Obamanın "köç reformunu"qəbul etməsi Meksikalı miqrant axının daha da artmasına səbəb olmuşdur. Donald Trampın hakimiyyətə gəlişi ilə Meksikalı miqrantlara qarşı mübarizə aparılmağa başlandı.ABŞ-ın Miqrant və Gömrük idarəsi 2017-cilin yanvar-mart aylarında 32%-lik artışla 21362 Meksikalı miqrantı həbs etmişdir.

ABŞ hələ 1970-ci illərdən etibarən Meksikadaki narkotika kartellərinə qarşı mübarizə aparmağa başlamışdır.Belə ki,ABŞ və Meksika hökuməti birgə narkotik kartellərinə qarşı mübarizə aparmaq məqsədi ilə 1973-cü ildə "Narkotiklərlə Mübarizə İdarəsi"yaradılır.1980-ci illərdən xüsusilə Reyqan hökuməti dövründən isə narkotikaya qarşı mübarizə daha da gücləndirilmişdir. Bütün bunlara baxmayaraq iki ölkə arasındaki narkotik kartelləri problemi hələ də davam etməkdədir. ABŞ hər nə qədər narkotikə qarşı

mübarizə aparan ölkə olsa da,Meksikadan ixrac olunan narkotik maddələrin ən böyük istehlakçısı da məhz ABŞ hesab olunur.

İki ölkə arasındaki sərhəd probleminin tarixi hələ 1848-ci ildə baş verən Meksika-ABŞ müharibəsinə dayanır.Buna baxmayaraq xüsusilə 1994-cü ildə NAFTA-nın qurulması ilə iki ölkə arasındaki sərhəd məsələsi arxa plana keçsə də,11 sentyabr hadisələrindən sonra C.Buşun irəli sürdüyü "Milli Təhlükəsizlik Deklarasiyası" ilə bu məsələ yenidən müzakirə olunan mövzulardan birinə çevirlmişdir.Son dövrlərdə Donapld Trampın iqtidara gəlməsi ilə sərhəd problemi daha da aktuallaşmışdır. C.Buşun başlatdığı sərhədd divarının hörülməsi məsələsi Trump tərəfindən davam etdirilir.Hətta Trump Divar tikintisinin xərclərinin Meksika tərəfindən ödəniləcəyini irəli sürmüşdür.Əgər ödəməsə ABŞ burada yaşayan sənədsiz Meksikalı miqrantların öz ölkələrinə pul göndərməsinə imkan verməyəcək.Trump bu hərəkətin ABŞ-ın Terrorla Mübarizə Qanunu əsasında həyata keçiriləcəyini bildirmişdir.

**Ədəbiyyat:**

1. Ə.H.Ələkbərov,M.Ə.Vəliyev,S.M,Məmmədov :Beynəlxalq İqtisadi Təşkilatlar-NAFTA-Odlar Yurdu Universiteti-Bakı Çaşıoğlu,2010
2. CRS In Focus IF10997, Proposed U.S.-Mexico-Canada (USMCA) Trade Agreement, by Ian F. Fergusson and M. Angeles Villarreal (08.02.2018)
3. Payan , T. (2006). The Three U.S.-Mexico Border Wars: Drugs, Immigration and Homeland Security. Connecticut: Praeger Security International., s.,55
4. Grillo, I. (2011).El Narco: Inside Mexico's Criminal Insurgency, Bloomsbury Press, New York.,s,279
5. U.S. Department of Homeland Security, 21st Century Border: Documents and Fact Sheets, http://www.dhs.gov/documents-and-fact-sheets. (21.04.2018)
6. http://www.bbc.com: Trump ve Meksika arasında duvar parası kavgası davası(01.02.2018)

**U.S-Mexico relations:Prespectives and Problems**

**Summary**

This article is about the U.S.-Mexico bilateral economic relationship is of key interest to the United States because of Mexico's proximity, the extensive cultural and economic ties between the two countries, and the strong economic relationship with Mexico under the North American Free Trade Agreement (NAFTA).1

The Mexican-US border has been a focus of attention for immigration researchers. After the Mexican-US war, this area is worthy of examination, especially in terms of shaping the border lines, legal and illegal border crossings, transformation of the border into an immigration corridor, and the families and households whom the border separate. The eclectic approach in this study examines the historical background of the Mexican-US border from a geographical and political perspective and the policies towards movements through the border to the US are discussed chronologically.

The article goes into the context of the drug war in the American continent; how drug consumption became a problem in the US, and how their attempts to solve it have focused entirely on the destruction of production and smuggling networks, instead of controlling their growing demand. This strategy has taken their war to other countries, including Mexico.Today, Mexico is one of the most important battlefields in the war against drugs; and itsoutcome is crucial in defining whether or not it is advantageous to carry on with it any longer.

**Отношения США и Мексики: Перспективы и Проблемы**

**Резюме**

Эта статья о двусторонних экономических отношениях между США и Мексикой представляет ключевой интерес для Соединенных Штатов из-за близости Мексики, обширных культурных и экономических связей между двумя странами и прочных экономических отношений с Мексикой в рамках Североамериканского соглашения о свободной торговле .( NAFTA)

Мексиканско-американская граница была в центре внимания исследователей иммиграции. После мексиканско-американской войны эта область заслуживает изучения, особенно с точки зрения формирования границ, законных и незаконных пересечений границы, превращения границы в иммиграционный коридор, а также семей и домашних хозяйств, которые разделяют границу. Эклектический подход в этом исследовании рассматривает исторический фон мексиканско-

американской границы с географической и политической точек зрения, а политика в отношении движения через границу в США обсуждается в хронологическом порядке.

Статья входит в контекст войны с наркотиками на американском континенте; как потребление наркотиков стало проблемой в США, и как их попытки решить проблему были сосредоточены исключительно на уничтожении сетей производства и контрабанды, а не на контролировании их растущего спроса. Эта стратегия привела их войну к другим странам, включая Мексику. Сегодня Мексика является одним из самых важных полей битвы в войне против наркотиков; и его результат имеет решающее значение при определении того, выгодно ли продолжать его дальше.

**Rəyçi: Phd.,Samir Quliyev**